# Prokurorluq orqanlarında yenilənmə və inkişaf prosesi daimidir

***Respublikamızın dövlət qurumları sırasında xüsusi statusu olmaqla, fəaliyyəti konstitusiya normaları ilə nizamlanan Azərbaycan Respublikası Prokurorluğu yarandığı gündən indiyədək mürəkkəb, bir o qədər də şanlı inkişaf yolu keçmişdir. Müxtəlif dövrlərin çətin sınaqlarından keçən prokurorluq orqanları bütün bu sınaqlardan alnıaçıq, üzüağ çıxaraq dövlətçiliyimizin maraqlarına xidmət edən demokratik bir quruma çevrilib. Müstəqil Azərbaycanda prokurorluq orqanlarının tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra başlamışdır. 1918-ci il noyabrın 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilmişdir. Dövrün olduqca ağır, mürəkkəb şəraitinə baxmayaraq, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri çərçivəsində böyük işlər görmüşdür.***

***Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq-mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Heç kəsə sirr deyil ki, XX əsrin 90-cı illərində yenicə müstəqillik qazanan respublikamızda AXC-Müsavat hakimiyyəti dövründə ölkəmizdə baş verən daxili qarşıdurmalar, anarxiya və xaos dövlət quruculuğumuza böyük zərbə vurmuşdur. Həmin dövrdə bir neçə rayon prokuroru müxtəlif cinayətkar qruplaşmalar tərəfindən qətlə yetirilmişdir. Məhz belə bir qarışıq dövrdə xalqın tələbi ilə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə ərazisində hökm sürən özbaşınalığa, idarəsizliyə, insanlarda hüquq-mühafizə orqanlarına inamsızlığa son qoyuldu. Ölkənin güc strukturları, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində dönüş yarandı, bir çox təhlükəli cinayətkar silahlı birləşmə zərərsizləşdirildi. Baş Prokurorluğun rəhbərliyi ilə digər hüquq-mühafizə orqanları ilə birgə aparılan bir sıra ağır dövləti cinayətlərin istintaqı nəticəsində bəzi cinayətkarların xarici ölkələrdən Azərbaycana ekstradisiyası təmin edildi.



Bu gün əminliklə söyləmək olar ki, Azərbaycan Prokurorluğu ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra və onun hakimiyyətdə olduğu illər ərzində xalq qarşısında öz layiqli yerini tutmuş, dövlətçiliyimizin təməllərindən hesab edilən mühüm təsisata çevrilmiş və hazırda ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi və qayğısı sayəsində öz üzərinə düşən vəzifələri uğurla davam etdirir. Qeyd edək ki, prokurorluğun peşə bayramının təsis edilməsi də məhz ulu öndərin xüsusi diqqəti və qayğısı nəticəsində reallaşmışdır. Belə ki, prokurorluq bir əsrə yaxın müddət ərzində dövlətin ən etibarlı dayağı kimi fəaliyyət göstərsə də, digər sahələrdən fərqli olaraq, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə heç bir təşəbbüs göstərilməmişdi. Lakin ümummilli lider Heydər Əliyev Xalq Cümhuriyyəti dövründə Bakı Dairə Məhkəməsinin nəzdində prokurorluğun fəaliyyətə başlaması haqqında Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarını əsas götürərək, 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il oktyabrın 1-nin "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd edilməsini reallaşdırmışdır.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda həyata keçirilən islahatlar məhkəmə-hüquq sahəsindən də yan ötməmişdir. Bu islahatlar nəticəsində beynəlxalq standartlara cavab verən, demokratik və milli prinsiplərə əsaslanan "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" əsasnamələr və digər normativ sənədlər hazırlanmışdır. Bununla da, prokurorluq orqanlarının fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə qədəm qoymuşdur.

2002-ci ildə Azərbaycan Respublikası Prokurorluğu tarixində ilk dəfə olaraq qulluğa qəbul aşkarlıq və şəffaf prosedur qaydada, müsabiqə əsasında həyata keçirilmişdir. Həmin ildən etibarən, Prokurorluq orqanlarına qəbul Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi ilə əlaqəli, tam aşkarlıq şəraitində, dövlət qurumları, vətəndaş cəmiyyəti təsisatlarının, beynəlxalq təşkilatlar, o cümlədən kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə keçirilmiş, təşkil olunan 20 müsabiqə nəticəsində ümumi prokurorluq işçilərinin 70 faizini təşkil edən 902 gənc hüquqşünas işə qəbul edilmişdir.

Cənab İlham Əliyevin 2003-cü ildə xalq tərəfindən prezident seçilməsindən sonra, digər bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da islahatlar aparılmışdır. Prokurorluq orqanları ümummilli lider Heydər Əliyevin hakimiyyəti dövründə olduğu kimi, yenə də daim diqqət və qayğı ilə əhatə edilmişdir. Bunun sayəsində hazırda prokurorluq orqanlarında kifayət qədər peşəkar, Vətənə, dövlətimizə xidmət edən, sədaqətli kadrlar vardır ki, bu da Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu islahatların nəticəsidir.

Beləliklə, ötən 18 il ərzində Prezident İlham Əliyevin dövrün nəbzini tutmaqla reallaşdırdığı yeni islahatlar hüquq-mühafizə sistemindən də yan ötməmiş, bu sahədə yeni keyfiyyət dəyişikliklərinə şərait yaratmışdır. Bu mənada xüsusi qeyd olunmalı məsələlərdən biri də, ölkə başçısının 27 sentyabr 2008-ci ildə imzaladığı sərəncamdır. Sərəncama əsasən, həyata keçirilən "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı" prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, peşəkarlığın və təcrübənin artırılması, eləcə də qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, işçilərin sosial müdafiəsinin yüksəldilməsində mühüm rol oynamışdır. Bütün bunların nəticəsində qanunun aliliyinin, xalqın və dövlətin maraqlarının qorunmasında, insan hüquq və azadlıqlarının mühafizəsində prokurorluğun rolu daha da artmışdır. Bundan əlavə, həmin dövlət proqramı prokurorluq orqanlarında yeni elmi-texniki nailiyyətlərin istifadə edilməsinə, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə, dövlət ittihamının müdafiəsində peşəkarlığın artırılmasına, ümumilikdə prokurorluq orqanlarının işinin günün tələblərinə uyğun şəkildə qurulmasına imkan vermişdir.

Ölkə başçısının hərtərəfli düşünülmüş uzaqgörən dövlət idarəçiliyi, səriştəli daxili və xarici siyasət, uğurla həyata keçirilən islahatlar nəticəsində respublikamızda sabitlik təmin edilib. Bununla paralel olaraq, prokurorluq orqanlarının üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dəyişikliklər edilmişdir. Belə ki, iş yükünün əsassız artırılmasına, bürokratizmə, lüzumsuz sənəd dövriyyəsinə gətirib çıxaran müddəaların aradan qaldırılmasına, şəffaflığın yüksək səviyyədə təmini diqqətə alınmaqla, yeni islahatlar mərhələsinə keçid reallaşdırılmış, Prezident İlham Əliyevin göstərişi ilə baş prokuror təyin edilmiş Kamran Əliyevin və hərbi prokuror Xanlar Vəliyevin rəhbərliyi ilə Azərbaycan Prokurorluğunda yeni dövrə qədəm qoyulmuşdur.

Prezident İlham Əliyev 2020-ci il mayın 1-də Kamran Əliyevi baş prokuror vəzifəsinə təyin edərkən bir sıra xüsusi, təxirəsalınmaz tapşırıqlar vermişdir. Dövlət qurumunda korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, bu mənada daha ciddi tədbirlərin həyata keçirilməsi, yeni struktur və kadr islahatlarının həyata keçirilməsi, qurumun yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşdırılması istiqamətində verilən tapşırıqlar prokurorluq orqanlarında həyata keçirilən müasir islahatların təməlini təşkil edir. Bir neçə gün sonra – mayın 12-də Baş Prokurorluqda videokonfrans rejimində əməliyyat müşavirəsi keçirilmişdir. Burada "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prokurorluq orqanlarında işin təkmilləşdirilməsi və islahatların dərinləşdirilməsinə dair tövsiyələrinin icrası üzrə 2020-ci il üçün Fəaliyyət Planı" təsdiq olunmuş, bununla da əsaslı struktur və kadr islahatlarının reallaşdırılmasına başlanılmışdır. Fəaliyyət planının təsdiq edilməsindən sonra qurumda bir sıra köklü dəyişikliklər həyata keçirilmişdir.

Ölkə başçısı kadr islahatları ilə bağlı demişdir: "Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər".

Qeyd etdiyimiz bütün bu faktlar onu göstərir ki, dövrün çağırış və tələblərinə uyğun olaraq prokurorluq orqanlarının keçdiyi inkişaf yolu dinamik olmuşdur. Bunun nəticəsində hüquq sisteminin aparıcı qolu olan prokurorluğun status və səlahiyyətlərində mütərəqqi dəyişikliklər baş vermişdir. Bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən prokurorluğa daim diqqət və qayğı göstərilir. İş fəaliyyətimizin daha da təkmilləşdirilməsi, əməkdaşlarımızın maddi-sosial problemlərinin həll edilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Mütəmadi olaraq əməkdaşlarımızın yüksək dövlət mükafatlarına və ali xüsusi rütbəyə layiq görülməsi, onların sosial vəziyyətinin yaxşılaşdırılması və maddi-texniki bazanın gücləndirilməsi üçün görülən tədbirlər fəaliyyətimizin daha da səmərəli olmasına gətirib çıxarır.

Fərəh hissi ilə qeyd etmək istərdim ki, prokurorluq orqanlarında yenilənmə və inkişaf prosesi daimidir. Hər il gənc və perspektivli kadrlar işə götürülür və vəzifədə irəli çəkilir. Baş prokuror Kamran Əliyev və hərbi prokuror Xanlar Vəliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında sağlam ədalət prinsiplərinə uyğun fəaliyyət mühitinin qorunub saxlanılmasına xüsusi diqqət yetirilir. Əminliklə söyləmək olar ki, indiyədək həyata keçirilən islahatların nəticəsində xalqımızda prokurorluq orqanlarına inam və etimad daha da artmış, qurumumuzun ictimai nüfuzu daha da yüksəlmişdir.

Respublikamızda həyata keçirilən məhkəmə-hüquq islahatları Hərbi Prokurorluqdan da yan ötməmişdir. Bu mənada Vətən müharibəsindən sonrakı dövrü xüsusi qeyd etmək lazımdır. Belə ki, ötən il sentyabr ayının 27-də əks-hücumla başlanan və Silahlı Qüvvələrimizin tarixi qələbəsi ilə nəticələn II Qarabağ müharibəsindən sonra Hərbi Prokurorluğun üzərinə düşən məsuliyyət bir qədər də artdı. Qeyd edim ki, Vətən müharibəsinin başlanmasından bir neçə gün əvvəl Ali Baş Komandan İlham Əliyevin tapşırığı ilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev, hərbi prokuroru ədliyyə general-leytenantı Xanlar Vəliyev və Müdafiə nazirinin müavini, general-leytenant Kərim Vəliyev cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olmuş, müdafiənin ön xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşlər keçirmiş və onların mənəvi-psixoloji vəziyyətinin daha da yaxşılaşdırılması, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın hüquq qaydalarının möhkəmləndirilməsi, eləcə də digər mühüm məsələlər barədə söhbətlər aparmışlar. Görüşlər zamanı Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuz qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətin diqqətinə çatdırılmışdır.

Bu da Prezident İlham Əliyevin Ermənistanda, eləcə də bölgədə baş verən siyasi hadisələri düzgün analiz etdiyini, uzaqgörən xarici siyasətlə baş verə biləcək hər cür vəziyyətə hazırlıqlı olduğunu göstərir. Məhz bu uzaqgörənlik Azərbaycanın Vətən müharibəsindəki ən böyük üstünlüklərindən biri idi.

Prezident İlham Əliyev tərəfindən prokurorluğun fəaliyyəti ilə bağlı islahatlar davam etdirilərək bu il aprelin 1-də işğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqlar Qubadlı Hərbi Prokurorluğu, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğu əsasında Ağdam Hərbi Prokurorluğu yaradılmış, Füzuli Hərbi Prokurorluğunun Füzuli şəhərinə köçürülməsi və yeni yaradılmış prokurorluqlar üçün lazım olan bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə və digər təşkilati-texniki vasitələrin təmin edilməsi məqsədilə tədbirlər görülməsi qərarlaşdırılmışdır. Bu istiqamətdə işlər hazırda uğurla davam etdirilir.



Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan uğurlu islahatlar, şübhəsiz ki, bundan sonra da öz müsbət nəticələrini verəcəkdir. Prokurorluq orqanlarında yaradılan şərait, peşəkar, eləcə də gənc və perspektivli kollektiv, onların səmərəli iş fəaliyyəti imkan verəcək ki, ölkə başçısının tapşırıqları bundan sonra da layiqincə icra edilsin. Hər bir prokurorluq işçisi vətəndaşların və ictimaiyyətin onların işindən razı qalması üçün bundan sonra da Vətənə ləyaqətlə xidmət edəcək, üzərlərinə düşən bu şərəfli vəzifəni layiqincə yerinə yetirəcəklər.

***Elşən MÜRSƏLOV,***
***Qubadlı hərbi prokuroru vəzifəsini icra edən, ədliyyə mayoru***